## Xalq təbabəti

# Gicitkən haqqında bilmədiklərimiz

*Gicitkən çox qiymətli bitki sayılır. Qida bitkisi kimi mühüm xüsusiyyətlərə malik olub, paxlalı bitkilərdən heç də geri qalmır. Yarpaqlarının tərkibi çoxlu miqdarda üzvi turşular, B, B2 və K vitaminləri, mikroelementlər, aşı və fitonsid maddələrlə zəngindir. Onların tərkibində 200 mq%-ə qədər C vitamini vardır ki, bu da limondakından 2,5, albalıdakından 7, kartof və almadakından isə 10 dəfə çoxdur. Karotinin miqdarı 50 mq%-dir. Tədqiqatlar göstərmişdir ki, 100 q qurudulmuş gicitkənin tərkibində 41 mq% Fe, 1,3 mq% Cu, 8,2 mq% Mn, 4,3 mq% B, 2,7 mq% Ti, 0,03 mq% Ni, 8,8 mq% xlorofil, 20,8% zülal, 2,5% sitosterin tərkibli yağ, 18% sellüloza, 3,07% azotsuz şirə və s. vardır.*

Gicitkən çox qədim zamanlardan başlayaraq müasir dövrədək tərəvəz bitkisi kimi istifadə edilir. Ondan hazırlanan sup, salatlar nəinki dadlı, həm də orqanizm üçün çox faydalıdır. Bitkinin cavan yarpaq və zoğlarını erkən yazda toplayıb, kətə, qutab, borş, sup, salat və s. hazırlanmasında geniş istifadə edirlər. Cavan zoğlarını duza və turşuya qoyur, yeri gəldikdə süfrəyə qoyub iştahgətirici ədviyyə kimi yeyirlər. Gicitkənin yarpağı çox qiymətli polivitaminli məhsuldur. Odur ki, müasir tibbdə ondan dəmləmə və duru ekstrakt halında bir sıra xəstəliklərin müalicəsində geniş istifadə edilir. Məsələn, daxili qanaxmalarda qankəsici, mədə-bağırsaq xəstəliklərinin müalicəsində həzm prosesi və maddələr mübadiləsini yaxşılaşdıran, bağırsaqların iltihabını aradan qaldıran vasitə, eləcə də qanazlığında, vərəm, sinqa, raxit, avitaminoz, qızdırma, mədə yarası, nəfəs yolları, onikibarmaq bağırsaq xəstəlikləri, böyrək daşı və s.-nin dərmanı kimi tətbiq olunur.





Gicitkən qanda hemoqlobin və eritrositlərin artmasına kömək edir. Bir sözlə, orqanizmdə qanyaradıcı rolunu oynayır. Bitki «qanı» adlandırılan xlorofil bitkinin yarpağında kulli miqdarda olduğundan qanazlığında, orqanizmin müqavimətinin artırılmasında istifadə edilir. Gicitkən sıyığını balla qarışdırıb, prostat vəzinin adenomiyası xəstəliyinə qarşı bir həftə qəbul etdikdə vəzin şişmə prosesi dayanır və xəstəlik bir ay müddətində aradan qalxır. Gicitkən və qoz yarpağından hazırlanmış sıyığı balla qarışdırıb daxili orqanlarında xərçəng olan xəstəyə verdikdə xərçəng hüceyrələrinin inkişafı dayanır. Gicitkən yarpaqlarından alınan yaşıl maddə ətriyyat, kosmetika, yeyinti və tibb sənayesində geniş tətbiq edilir.

Xalq təbabətində isə bitkidən daha geniş istifadə edilir. Belə ki, gicitkəndən hazırlanmış cövhərdən ürək, böyrək, qaraciyər xəstəliklərində, qan azlığında, qastritdə daxilə qəbul etməyi məsləhət görürlər. Onun ekstraktı ilə baş yuduqda tüklərin dibini bərkidir və tökülməsinin qarşısını alır. Gicitkən qan dövranını tənzimləyir, saçın möhkəmliyinə, tökülməməsinə və uzanmasına səbəb olur. Qalxanabənzər vəzinin normal inkişafını aktivləşdirir, ürək-damar fəaliyyətinə, nəfəs borusuna yaxşı təsir edir.

# Təsadüf nəticəsində edilən kəşf və ixtiralar

### Penisillin

Bakteriya infeksiyaları ilə mübarizədə geniş istifadə olunan penisillin qrupundan olan antibiotiklərin kəşfi məşhur elmi əfsanəyə çevrilib. Özü də bulaşıq qabların sayəsində...

Şotlandiya bioloqu Aleksandr Flemminq 1928-ci ilin avqustunda tədqiqat işlərindən yorularaq məzuniyyətə yollanır. Qayıdanda isə görür ki, laboratoriyada qoyub getdiyi stafilokok kulturalarının (laboratoriya üsulu ilə yetişdirilən bitkilər, bakteriyalar və s.) üzərində göbələklər əmələ gəlib və bakteriyaları məhv edib. Bu kəşf təbabətdə antibiotiklər əsrinin başlanğıcını qoyub.

### Mikrodalğalı soba

Mikrodalğalı soba varlığına görə mühəndisin cibindəki şokolada borcludur. O zamanlar Raytheon şirkətində işləyən amerikalı mühəndis Persi Spenser maqnetorun (elektron axınının maqnit sahə ilə qarşılıqlı təsiri hesabına mikro dalğaları generasiya edən qurğu) yanından keçərkən görür ki, şokolad əriyir. Bir neçə eksperimentdən sonra 1945-ci ildə Spenser adını mikro dalğalı sobanın yaradıcısı kimi əbədiləşdirdi.

### Koka-Kola

Con Pemberton baş ağrısına qarşı dərman düzəltmək istəyirdi. Onun resepti kokanın (yarpaqlarından kokain çıxarılan tropik ağac - red.) təzə yarpaqları və tropik ağac kolanın qozalarından (tərkibində kofein və teobromin (kakao və çayın tərkibində olan alkoloid) olan bitki) ibarət idi. Pembertonun köməkçisi təsadüfən preparatı qazlı su ilə qarışdırır və dünyada ilk "Koka-Kola"nı alır. Sonralar Pemberton içkinin istehsal hüququnu "The Coca-Cola Company" şirkətinə satır. Şirkət uzun illər bu sirli reseptlə milyonlar qazanır. Pemberton isə kəşfindən iki il sonra baş ağrısına qarşı hazırladığı dərmanın qurduğu maliyyə imperiyasını görmədən vəfat edir.

# Müseyib Abdusalam oğlu Musayev



Qəbələ rayon ictimaiyyətinə ağır itki üz vermişdir. Görkəmli ziyalı, keçmiş partiya işçisi və dövlət qulluqçusu Müseyib Abdusalam oğlu Musayev 2017-ci il aprelin 11-də ömrünün 81-ci baharında vəfat etmişdir.

Müseyib Musayev 1937-ci il mart ayının 26-da Qəbələ rayonunun Bum qəsəbəsində anadan olmuşdur. O, 1963-cü ildə S. Ağamalıoğlu adına Azərbaycan Kənd Təsərrüfatı İnstitutuna daxil olaraq 1968-ci ildə həmin ali məktəbin aqronomluq fakültəsini alim aqronom ixtisası üzrə bitirmişdir.

Əmək fəaliyyətinə Bum qəsəbəsindəki keçmiş Jdanov adına kolxozda aqronom kimi başlayan Müseyib Musayev 1968-1970-ci illərdə Qəbələ (əvvəlki Qutqaşın) Rayon Partiya Komitəsində təlimatçı işləmiş, 1970-72-ci illərdə Bakı Ali Partiya Məktəbində təhsil almışdır (Ali Partiya Məktəbi idarəetmə orqanları üçün yüksək ixtisaslı kadrlar hazırlayırdı).

Ali partiya təhsili aldıqdan sonra 1972-73-cü illərdə rayon partiya komitəsində öz əvvəlki işində əmək fəaliyyətini davam etdirən Müseyib Musayev 1973-74-cü illərdə rayon xalq nəzarəti komitəsinin sədri vəzifəsinə irəli çəkilmişdir.

Partiya və dövlət işində bacarıqlı təşkilatçı və səmimi bir insan kimi özünü göstərən Müseyib Musayev 1974-78-ci illərdə İsmayıllı Rayon Partiya Komitəsinin ikinci katibi vəzifəsində çalışmışdır.

1979-cu ildən 2006-cı ilə kimi isə qəbələ rayonunda müxtəlif məsul işlərdə—Qəbələ Aqrar Sənaye Birliyi baş direktorunun müavini və baş direktoru, Qəbələ Konserv Zavodunun istehsal şöbəsinin rəisi, Bum qəsəbə inzibati ərazi nümayəndəsi vəzifələrində çalışan Müseyib müəllim əsil vətəndaşlıq duyğusu ilə dövlətçiliyimizə xidmət göstərmiş, azərbaycançılıq məfkurəsindən çıxış edərək rəhbərlik etdiyi bütün sahələrdə qüvvə və bacarığını əsirgəməmişdir.

Tanınmış ictimaiyyətçi, səmimi insan, müdrik ağsaqqal Müseyib Musayevin əziz xatirəsi onu tanıyanların qəlbində həmişə yaşayacaqdır.

***Allah rəhmət eləsin.***

**Yoldaşlarından bir qrup.**

# Futbol xəbərləri

Yunanıstanın paytaxtı Afinada keçirilən "Elit Neon Cup" turnirinə yekun vurulub.

"Qəbələ"nin 15 yaşadək futbolçulardan ibarət komandası yarışın sonuncu günündə 9-10-cu yerlər uğrunda matçda qüvvəsini sınayıb. "Qırmızı-qaralar" Albaniyanın "Tirana Nasional" klubu ilə üz-üzə gəliblər. Famil Xəlilovun yetirmələri bu qarşılaşmada 4:0 hesablı qələbə qazanıblar. "Qəbələ"nin heyətində Veysəl Rzayev 2, Samir Məhərrəmli və Hüseyn Mürsəlov hərəsi 1 qol vurublar. Bu qələbə ilə komandamız yarışda 9-cu pillədə qərarlaşıb.

Yarışın qalibi adına isə Yunanıstanın AEK klubu yiyələnib. Digər Yunanıstan təmsilçisi "İraklis" 2-ci, Rusiya "Krasnodar"ı 3-cü olub.

* * *

Tbilisidə Vitali Daraseliya turnirində növbəti oyunlar keçirilib.

"Qəbələ"nin 16 yaşadək futbolçulardan ibarət komandası 5-8-ci yerlər uğrunda mübarizəyə qoşulub. Komandamızın rəqibi Xorvatiyanın "Dinamo" klubu olub. Şəhruz Mustafayevin baş məşqçisi olduğu komandamız Zaqreb təmsilçisi ilə görüşdə 1:0 hesabı ilə qalib gəlib. "Qəbələ"nin heyətində Samir Qurbanov fərqlənib.

***«Qəbələ».***

# İTMİŞDİR

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 dekabr 2002-ci il tarixli 17 saylı qərarı ilə Nohurqışlaq kənd sakini **Hafizov Şahverən Allahverən oğluna** verilmiş JN seriyalı 614 F nömrəli (kod 40616028) və JN seriylı 614 G nömrəli (kod 40616028) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamələr** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ rayonunun Vəndam qəsəbə sakini **Əhmədov Vəkil Murad oğluna** verilmiş **sürücülük vəsiqəsi** itdiyi üçün etibarsız sayılır.


**«QƏBƏLƏ»**

**qəzetinə 2017-ci il üçün abunə yazılışı davam edir**

**«QƏBƏLƏ»**

**qəzetinin reklam xidməti**

**205-19-14, 205-15-56**


# ALLAH RƏHMƏT ELƏSİN!

Əsabəli Məmmədov, Abdulhəmid Eyyubov, Allahyar Rəşidov, Rasim Bayramov, Zahir Aslanov, Qabil Səlimov, Xanlar və Yavər Yaqubovlar yaxın dostları **Müsalim Musayevə** qardaşı

**MÜSEYİB MUSAYEVİN**

vəfatı ilə əlaqədar kədərləndiklərini bildirir və dərin hüznlə başsağllığı verirlər.

Saday, Əlövsət, Hikmət Abdullayevlər yaxın qohumları

**MÜSEYİB MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.


Redaktor
Varis Yaqubov

*TƏSİSÇİLƏR:*
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

*Məsul katib*
*Qüdrət Səmədov.*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında
hesab № Az36AİİB
33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.

*Dizayner Rais Rəşidov*

Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.

*Tiraj 1700*